# “Dilbaz” atın məkanı

***Haqqında söhbət açacağım və əmək fəaliyyəti barədə məlumat verəcəyim şəxs elimizin, obamızın tanınmış əmək adamlarından biri olan Səlimxan Musa oğlu Gülalıyevdir.***

Səlimxan Gülalıyev 1950-ci ildə Sadıxlı kəndində dünyaya göz açmış, o kənddə böyümüş, orta təhsil almış, hamı kimi o da respublikanın ali təhsil müəssisələrinin birində təhsilini davam etdirərək alim zootexnik ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə Göyçay rayonunda başlayan Səlimxan Gülalıyevin ürəyi həmişə doğma kəndində olmuş və elə buna görə də hərbi xidməti borcunu yerinə yetirdikdən sonra 1975-ci ildə doğma kəndinə qayıtmış və ixtisası üzrə təsərrüfatda işləmişdir.

S.Gülalıyev bir müddətdən sonra atçılıq zavodunda iqtisadçı vəzifəsini icra etmiş, 1981-1997-ci illərdə isə Muğanlı Qunduzçuluq sovxozunda, atçılıq zavodunda, Sadıxlı üzümçülük sovxozunda direktor vəzifəsində çalışmışdır. O, 1997-ci ildə doğma kəndində “Dilbaz” atçılıq təsərrüfatını yaratmış və həmin vaxtdan bu təsərrüfata rəhbərlik edir.



Səlimxan Gülalıyevin əmək fəaliyyəti barədə yazmağa başlayanda, daha doğrusu, onun özündən müsahibə götürmək istəyəndə rayonun nüfuzlu ağsaqqalı, ziyalısı Səlimxan müəllimin əmək fəaliyyətinə yaxşı bələd olan Mahmud Məmmədov bizimlə həmsöhbət oldu. O, Səlimxan Gülalıyevlə söhbətimin məqsəd və məramını biləndə öz ürək sözlərini qəlbində saxlaya bilməyib dedi: - Kaş bütün təsərrüfat rəhbərləri Səlimxan Gülalıyev kimi olaydı. Onun bacarığı, qabiliyyəti, adamlarla davranışı kənd camaatına və eləcə də rayon ictimaiyyətinə yaxşı bəllidir. Onun barəsində çox danışa bilərəm. Təkcə onu demək kifayətdir ki, Sadıxlı kəndinin məşhur “Dilbaz” atının məkanına çevrilməsində Səlimxan Gülalıyevin əvəzsiz xidməti vardır.

Bəli, Səlimxan Gülalıyev bu hörməti, bu nüfuzu heç də asanlıqla qazanmamışdır. O, var qüvvəsini sərf edərək rəhbərlik etdiyi təsərrüfatı qabaqcıllar sırasına çıxarmaq üçün əlindən gələni əsirgəməmişdir. Və elə buna görə də 1997-ci ildə Azərbaycanın nəsli kəsilməklə üzləşən “Dilbaz” cinsli atçılıq təsərrüfatının yaradılması Səlimxan Gülalıyevə həvalə edilmiş və o bu şərəfli işin öhdəsindən layiqincə gəlmişdir.

“Dilbaz” atçılıq təsərrüfatı yaradılarkən bu təsərrüfata Şəki rayonunun “Daş-Üz” çamışçılıq sovxozundan 1 baş ayqır, 10 baş maydan gətirilmiş, Ağstafa atçılıq zavodundan əkinəyararlı 335 hektar torpaq sahəsi ayrılmış, yardımçı təsərrüfat kimi Ceyrançöl qoyunçuluq sovxozundan cinsə yaramayan 800 baş xırdabuynuzlu davar verilmişdir. Ötən illərdə təsərrüfatda bir çox çətinliklərlə üzləşən Səlimxan Gülalıyev həmişə nikbin olmuşdur. Onun təsərrüfata düzgün rəhbərliyi nəticəsində həmin illərdə “Dilbaz” atçılıq zavodunda bir çox uğurlu nəticələr əldə olunmuş, daxili imkanlar hesabına atların sayı artırılaraq 103 başa çatdırılmışdır. Təkcə bir faktı göstərmək kifayətdir ki, bu təsərrüfatdan sərhəd qoşunlarına 15 baş əvəzsiz at verilmiş, 30 başdan çox at isə satılmışdır. Bu gün böyük iftixarla demək olar ki, “Dilbaz” atçılıq təsərrüfatı ölkəmizin bütün regionlarında tanınır.

Təsərrüfatda yetişdirilən “Dilbaz” atları Bakı Dövlət Cıdır meydanında və Şəki At Turizm Mərkəzində keçirilən yarışlarda həmişə layiqli yerlər tutmuşdur. 2005-ci ildə Yevlax rayonunun Xaldan qəsəbəsində 6 rayon arasında keçirilən yarışda “Dilbaz” atları finişə birinci çatmış və Prezident Kubokuna layiq görülmüşdür.

2005-ci ilin may ayında Bakı şəhərində Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgisi ən yaddaqalan anlardan biri olmuşdur. Həmin sərgi ilə tanış olan möhtərəm Prezidentimiz İlham Əliyev “Dilbaz” atçılıq təsərrüfatının rəhbəri Səlimxan Gülalıyevlə görüşmüş və bu təsərrüfatın fəaliyyətini daha da genişləndirmək üçün dəyərli məsləhətlər vermişdir.

Ümumiyyətlə, “Dilbaz” atçılıq təsərrüfatının fəaliyyəti ölkə başçısı tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev heyvandarlığın madditexniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında 21 avqust 2015-ci il tarixdə imzaladığı sərəncamda məhz “Dilbaz” atçılıq təsərrüfatının perspektivləri də yüksək qiymətləndirilmişdir.



Həmin sərəncama əsasən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan “Dilbaz” atı cinsinin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin görülməsi üçün 1,5 milyon manat vəsait ayrılmışdır.

Bu gün “Dilbaz” atçılıq təsərrüfatı yeni inkişaf yoluna qədəm qoyur. Təsərrüfatın balansında kifayət qədər torpaq sahəsinin olmasına baxmayaraq, həmin torpaqların becərilməsi üçün lazımi texnika çatışmır. “Dilbaz” atçılıq sovxozunun direktoru söhbət zamanı bildirdi ki, ölkə başçısının sərəncamı bu təsərrüfatda mövcud olan problemlərin aradan qaldırılmasına, təsərrüfata müasir tipli texnikanın alınmasına lazımi .şərait yaradacaqdır. O bildirdi ki, ölkə başçısının vaxtında verdiyi bu sərəncam lazımi maddi-texniki bazası olmayan “Dilbaz” atçılıq təsərrüfatı üçün əvəzsiz meyardır. Biz bu günə kimi təsərrüfatda təkcə atların baş sayının artırılmasına fikir verirdiksə, bu sərəncamdan sonra atların keyfiyyətinin, cinsinin yaxşılaşdırılmasına xüsusi fikir verəcəyik. Mən bütün bunlara görə təsərrüfatımızın bütün işçiləri və eləcə də atsevərlər adından hörmətli Prezidentimiz cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

“Dilbaz” atçılıq təsərrüfatı təkcə atsevərlər üçün deyil, digər tanınmış şəxsiyyətlər üçün də ziyarət yeri olmuşdur. Hələ sağlığında tanınmış bədii söz ustaları İsmayıl Şıxlı, Hüseyn Arif və onlarca başqa tanınmış şəxsiyyətlər, rayonumuza gələn qonaqlar bu təsərrüfatda olmuş, “Dilbaz” atlarının kişnəməsinə, şahə qalxmasına tamaşa etmişlər.

Biz əminik ki, “Dilbaz” atçılıq təsərrüfatının fəaliyyəti bundan sonra daha da yaxşılaşdırılacaq, respublikanın ən tanınmış təsərrüfatına çevrilməsi üçün bütün imkanlardan istifadə ediləcəkdir.

**İbrahim ƏLİYEV,**
**“Ağstafa” qəzetinin**
**baş redaktoru.**